Prezident Ağdaş rayonuna 2 milyon manat ayırdı

Yazan
24.08.13 22:07 -



Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Ağdaş Rayon İcra Hakimiyyətinə vəsait ayrılmasına dair sərəncam imzalayıb.

Sərəncamda deyilir ki, iyirmi min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Ləki-Pirəzə-Xınaxlı avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 2,0 (iki) milyon manat vəsait ayırlsın.
Maliyyə Nazirliyinə nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin edilməsi tapşırılıb.